# Sultan Əbdülhəmid:
# "Erməni məsələsini ermənilərin axırına çıxmaqla həll etmək olar"



**Mürsəl İrəvanlı,**

**Yazıçı-publisist, M. Qorki adına Beynəlxalq mükafat laureatı Gəncə şəhəri**

**XI yazı**

***...Bu tarixin "yaradılması" bizim günlərdə də davam etdirilir. Dağlıq Qarabağ və onun ətraf rayonlarının işğalı planı nə vaxt və hansı şəraitdə həyata keçirilməyə başladı? Bu sualın cavabı o qədər də mürəkkəb deyil. Sadəcə olaraq yaxın keçmişimizdə baş verən tarixi olaylara bir qədər diqqət yetirmək kifayətdir. Hər halda laxlamaqda olan qırmızı imperiyanın "aşkarlıq və yenidənqurma" şüarını ortaya atması, sovet cəmiyyətinin demokratikləşdirilməsinin, siyasi sistemdə yeni islahatların keçirilməsi məsələsinə hansı prizmadan yanaşmaq lazım gəldiyini anlamaq, süzgəcdən keçirmək lazımdır. Belə ki, "Krunk", "Asala", "Qarabağ komitəsi", PKK-a və "Narodnaya volya" separatçı terror təşkilatları və onlara züy tutan Moskva rəhbərləri Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün yeni hiyləyə əl atdılar. Azərbaycanın o vaxtkı rəhbərliyinin maymaqlığından istifadə edərək Dağlıq Qarabağ Muxtar Vilayətində Xüsusi İdarə Formasının tətbiq edilməsinə nail oldular və bölgəyə həm Rusiyadan, həm də bir sıra xarici ölkələrdən silah-sursat daşınmasına yol açdılar. Əlbəttə bu işdə SSRİ Ali Sovetinin fərmanı onlara yeni ruh, stimul verdi.***

***1989-cu il yanvarın 13-də "Pravda" qəzetində dərc olunmuş fərmana nəzər salaq. Orada göstərilir:***

"Dağlıq Qarabağ Muxtar Vilayətində və onun ətrafında millətlərarası münasibətlərin gərginliyini davam etməsi ilə əlaqədar olaraq, onların daha da kəskinləşməsinin qarşısını almaq və bu regionda vəziyyəti sabitləşdirmək məqsədilə, Azərbaycan SSR və Ermənistan partiya və dövlət orqanlarının, habelə Millətlər Soveti komissiyasının təkliflərini nəzərə almaqla SSRİ Ali Sovetinin Rəyasət Heyəti bu məsələni Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti ilə müzakirə edib SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndinə müvafiq surətdə qərara alır:

1. Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində saxlamaqla Dağlıq Qarabağ Muxtar Vilayətində müvəqqəti olaraq xüsusi idarə forması tətbiq edilsin.

A.İ.Volski yoldaşın sədrliyi ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin xüsusi idarə komitəsi yaradılsın.

2. Müəyyən edilsin ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin xüsusi idarə komitəsinin bilavasitə SSR İttifaqının ali dövlət hakimiyyəti və idarə orqanlarına tabedir, muxtar vilayətin xalq deputatları Sovetinin və onun icraiyyə komitəsinin bütün səlahiyyətlərinə, komitə sədri isə vilayət xalq deputatları Soveti icraiyyə komitəsi sədrinin hüquqlarına və vəzifələrinə malikdir.

***Dağlıq Qarabağ Muxtar Vilayətinin yerli dövlət hakimiyyəti və idarə orqanlarına rəhbərlik etmək göstərilən komitəyə tapşırılsın, habelə vilayət xalq deputatları Soveti icraiyyə komitəsinin aparatı əməli orqan kimi ona verilsin.***

***3. Müəyyən edilsin ki, bu fərmanın qüvvədə olduğu dövrdə Dağlıq Qarabağ ərazisindəki ittifaq və respublika tabeli müəssisələr, idarə və təşkilatlar və digər struktur bölmələri Azərbaycan SSR Nazirlər Sovetinin rəyi nəzərə alınmaqla SSRİ Nazirlər Sovetinin müəyyən etdiyi məsələlər dairəsi üzrə komitəyə tabedirlər.***

4. Dağlıq Qarabağ Muxtar Vilayətinin xüsusi idarə komitəsinə ixtiyar verilsin:

Dağlıq Qarabağ Muxtar Vilayəti rayon, şəhər, kənd, qəsəbə xalq deputatları Sovetlərinin, onların icra və sərəncam orqanlarının səlahiyyətlərini dayandırsın, ictimai təşkilatların və özfəaliyyət birliklərinin Konstitusiyaya və qanunvericiliyə zidd olan fəaliyyətini dayandırsın, yaxud lazım gəldikdə onları buraxsın.

5. "Dövlət müəssisəsi (birliyi) haqqında" SSRİ Qanununun 6-cı



maddəsinin 2-ci, 3-cü bəndlərinin və 5-ci bəndin 3-cü abzasının və 7-ci maddəsinin qüvvəsi Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində müvəqqəti dayandırılsın.

Bu fərman 1989-cu il yanvarın 20-dən qüvvəyə minsin.

SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri – M.Qorbaçov

SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi – T.Menteşaşvili

Moskva, Kreml, 12 yanvar 1989-cu il..."

Bu fərman Bakıda böyük "sevinc və hərarətlə" qarşılandı. Onu müzakirə etmək üçün təcili (yanvarın 13-də) Azərbaycan partiya fəallarının yığıncağı çağırıldı. Tədbirdə iştirak edən kommunistlər bir nəfəsə bildirdilər ki, "biz yuxarıdan gələn hər bir göstəriş və qərara can-başla əməl etməliyik və partiyanın irəli sürdüyü direktivlərin sözsüz həyata keçirilməsi işinə var qüvvəmizi səfərbər etməliyik ki, Dağlıq Qarabağ və onun ətrafında vəziyyət normal hala düşsün, ekstremist-millətçi ünsürlərin hərəkətlərinə son qoyulsun..." Ancaq bu alçaq hərəkətlərə son qoyulmaq əvəzinə daha da qızışdırıldı. Bakıda iclaslara, müşavirələrə başları "qarışan" rəhbərlərin arxadan vurulan zərbələrdən xəbərləri olmadı. Dağlıq Qarabağda yaradılmış "xüsusi idarə" üsulu da əslində formal xarakter daşıyırdı. "Qarabağ" və "Krunk" komitələrinin və digər separatçı-terrorçu dəstələrinin üzvləri İrəvan-Tehran-Moskva marşrutu üzrə yeni planlar hazırlayır, Dağlıq Qarabağı türklərdən "təmizləmək" uğrunda baş sındırırdılar.

***Bir əsas məsələ də diqqətdən yayınmamalıdır ki, hələ "xüsusi idarə" üsulu yaradılmazdan əvvəl – 1988-ci ilin may-iyun aylarında Xankəndində yaşayan 3385 nəfər şəhər əhalisi zor gücünə qovulmuş, çoxlu sayda şəxsi evlər qarət edilərək yandırılmış, onların bir qismi Bakı və Ağdama pənah gətirmiş, bir hissəsi isə Şuşada yaşayan ermənilərlə dövlət səviyyəsində xüsusi, təmtəraqlı evlərini JEK evləri ilə dəyişmişdilər. Şuşada yaşayan əhalinin də sonrakı taleyi bütün dünyaya məlumdur.***

O dövrdə Moskvanın qulu olan millət xaini, azadlıq və demokratiyanın getdikcə gücləndiyindən vahiməyə düşən Ə.Vəzirov həmin yığıncaqda demişdi:

- ***"Dövlət Statistika Komitəsinin işçiləri Mərkəzi Komitənin binası qarşısında icazə verilməmiş nümayişin ən fəal iştirakçıları arasında olmuşlar. Onlar cəfəng uydurmalar yayır, qeyri-sağlam ehtirasları və emosiyaları qızışdırırdılar. Dövlət komitəsinin sədri K.M.Məmmədov görəsən belə bir vəziyyətə necə dözə bilib – başçılıq etdiyi təşkilatda elə şərait yaradıbmış ki, burada çalışan 20 erməni vahiməli şayiələrin təsiri altında işdən çıxmağa məcbur olmuşlar..." Belə hərəkətləri necə başa düşməli? Bəlkə onlar istəyirlər ki, bütün respublikaya od vurulsun? Qan tökülsün? Ancaq bu qan çoxdan tökülmüşdü. Ermənistanın Qafan, Sisyan, Vedi, Zəngibasar, Hamamlı, Göyçə mahalı və türklərin sıx yaşadıqları digər rayonlarda yüzlərlə adam qətlə yetirilmiş və şikəst olmuşdu. Sözsüz ki, bundan Azərbaycanın o vaxtkı rəhbərlərinin hamısının xəbəri vardı. O cümlədən başsız başçının da... Nə isə...***

1989-cu il avqustun 16-da Xankəndində (Stepanakertdə) "DQMV erməni əhalisinin (əslində həmin tarixdə Şuşadan başqa digər rayonlarda türklər seyrəlmişdi) səlahiyyətli nümayəndələrinin qurultayı" öz işinə başladı. Üç gün davam edən bu qurultay Azərbaycan SSR-in tərkibində muxtar vilayət kimi Dağlıq Qarabağın statusunu tanımaqdan imtina etdiyini bildirmiş, vilayəti Azərbaycan SSR Konstitusiyasının və respublikanın digər qanunlarının icrasının dayandırıldığı "müstəqil İttifaq ərazisi" elan etmişdir. Qurultay "Milli şura" yaratmışdır. "Milli şura" DQMV-də yeganə xalq hakimiyyəti elan edilmişdir ki, bu da əslində xüsusi idarə komitəsini bütün səlahiyyətlərdən məhrum edilməsinə işarə idi. Bütün bunlar, habelə DQMV-də tam hakimiyyətin bütünlükdə "Milli şura" verilməsi haqqında qərəzli bəyanat Azərbaycan dövlətinin gələcəyinə qəsd idi. Kreml tərəfindən himayə edilən millətçi, separatçı daşnak qüvvələrinin daha da fəallaşmasına, Dağlıq Qarabağ və ətraf bölgələrin işğalına hazırlıq idi. Bəs Azərbaycan dövləti nə etdi? Yalnız hadisədən on gün keçdikdən sonra bir "bəyanat" verməklə kifayətləndi. Çünki həmin günlərdə "Milli şura" əslində "etnik təmizləmə" işləri ilə məşğul idi. Heç bir dövlət nümayəndəsi Xankəndinə getməyə cürət etmirdi. Daha doğrusu ermənilər tərəfindən qəbul edilmirdi. Stepanakertə giriş-çıxış "Milli şura" tərəfindən qadağan olunmuşdu. Çox keçmədən burada yaradılmış xüsusi idarə komitəsinin ləğv olunması barədə "Milli şura" qərar verdi və bundan sonra tam müstəqil fəaliyyətə başladı. "Özünümüdafiə" adı altında qoşun birləşmələri yarandı. Həmçinin komandirlərin əksəriyyəti erməni millətindən olan Rusiyanın 366-cı alayını öz tərəflərinə çəkə bildilər. Tədricən "Dağlıq Qarabağın bütün türklər" qovuldu, əzildi, yurd-yuvaları yad tapdağına keçdi. Qanlı faciələr bir-birini əvəz etdikcə, erməni daşnak qrupları və onların havadarları daha da qızışmış və yeni-yeni fitnə-fəsadlar törədilməsinə gətirib çıxarmışdır. Etnik təmizləmə və soyqırımı siyasəti bizim xalq üçün yenilik deyildi. İki yüz ildən artıq bir müddətdə bu aksiya erməni şovinist ünsürləri tərəfindən dönə-dönə təkrarlanmışdı. Bakı, Naxçıvan, Zəngəzur, Şərur, Dərələyəz, İrəvan, Sürməli, Sərdarabad, Göyçə mahalı, Dərəçiçək, Borçalı, Qarayazı və digər məntəqələrdə milyondan artıq millət yalnız türk olduğuna görə soyqırımı siyasətinin qurbanına çevrilmişdir.

***XX əsrin sonlarında isə daha dəhşətli soyqırımı hadisəsi baş vermişdir. Bu, Xocalı faciəsi idi. Yeddi min nəfərin yaşadığı bu məntəqə yerlə-yeksan edilmiş, adları bəlli olan 613 nəfərin, o cümlədən 106 qadının, 83 azyaşlı uşağın, 70 qocanın həyatına son qoyulmuş, 487 nəfər əlil olmuş, 1275 dinc sakin əsir götürülmüş, 150 nəfər isə itkin düşmüşdür.***
***Bu soyqırımı aktı nəticəsində bəzi ailələr bütünlüklə məhv edilmiş, mülki əhali görünməmiş vəhşiliklə qətlə yetirilmiş, əsir götürülənlərə olmazın işgəncələr verilmiş və verilir. Soydaşlarımızın əsas insan hüquqları onda da kobud şəkildə pozulmuş, indi də pozulmaqda davam edir.***

XX əsrin sonlarında isə daha dəhşətli soyqırımı hadisəsi baş vermişdir. Bu, Xocalı faciəsi idi. Yeddi min nəfərin yaşadığı bu məntəqə yerlə-yeksan edilmiş, adları bəlli olan 613 nəfərin, o cümlədən 106 qadının, 83 azyaşlı uşağın, 70 qocanın həyatına son qoyulmuş, 487 nəfər əlil olmuş, 1275 dinc sakin əsir götürülmüş, 150 nəfər isə itkin düşmüşdür.

Bu soyqırımı aktı nəticəsində bəzi ailələr bütünlüklə məhv edilmiş, mülki əhali görünməmiş vəhşiliklə qətlə yetirilmiş, əsir götürülənlərə olmazın işgəncələr verilmiş və verilir. Soydaşlarımızın əsas insan hüquqları onda da kobud şəkildə pozulmuş, indi də pozulmaqda davam edir.

1991-ci il sentyabrın 2-də "Milli şura" tərəfindən "Qarabağ erməni dövləti" yaradılanda Bakıda vəzifə davası gedirdi. Azərbaycan torpaqlarını parçalamaq istəyən qüvvələr hakimiyyətə can atır, bir-biri ilə çəkişir, marafon yarışına çıxır, mübarizə aparırdılar. Ermənilər də bu fürsətdən istifadə edərək Azərbaycan rayonlarını bir-bir işğal edir, əhalisini qırır, salamat qalanlar isə baş götürüb hara gəldi qaçırdılar. Beləliklə, Ermənistanla DQMV-i arasında əlaqə sahmana salındı, işğal əraziləri türksüzləşdi. Qəsb olunmuş rayonların adları dəyişdirilərək qondarma erməni adları ilə əvəz olundu. "Yeni" adlara diqqət yetirək:

***1. Ağdam – Uçtasar***
***2. Füzuli – Maranda***
***3. Laçın – Kaşatağ***
***4. Kəlbəcər – Berdzor***
***5. Zəngilan – Kovşakan***
***6. Qubadlı – Sanasar***
***7. Cəbrayıl – Crakan***
***8. Əsgəran – Diqranakert***

Bundan başqa yalnız rayon mərkəzləri deyil, bəzi qəsəbə və kəndlərin də adları "erməniləşdirilib". Belə çıxır ki, onların bu əraziləri Azərbaycana qaytarmaq fikirləri yoxdur. İşğal altındakı ərazilərin ermənilərə məxsus olduğunu "sübut" etmək üçün "Arsaq erməni dövləti" xəritəsini cızdılar. Xəritəyə vaxtilə Şaumyanın adı verilmiş rayon da daxil edilmişdir. Qarabağın adının silinməsi və regiona "Arsaq" adı verilməsi ermənilərin ən böyük və bağışlanmaz səhvidir. Çünki arsaqlar erməni ola bilməz, onların soykökünə mənsub deyil. Belə ki, arsaqlar XIII əsrdə Monqol xaqanı Hülakü xanın (1258-1265-ci illər) Azərbaycana yürüş zamanı döyüşçülər sırasında olmuş, Abaqa xan və Arqun xanların (1265-1291-ci illər) dövründə onlar müasir Dağlıq Qarabağın qərbindən Naxçıvana tərəf uzanan dağlıq sahədə məskən salmışlar. Zəngəzur mahalındakı Şəki (ermənilər bu kəndin də adını silərək "Sumbataşen" qoymuşlar) azərbaycanlı kəndi Arsaqların mərkəzlərindən biri olmuşdur. Böyük alimlərdən Bartold, Mirəli Seyidov və hind xalqının görkəmli nümayəndəsi Cəvahirləl Nehru da bu yöndə çox dəyərli fikirlər söyləmişlər. Sübut etmişlər ki, Arsaqlar həqiqətən də türk mənşəli tayfalardan biridir, Azərbaycana Uzaq Şərqdən gəlmişlər.

***Hazırda Arsaqların böyük bir nəsli Monqolustan Xalq Respublikasının Çaybasan vilayətinin Gerulen (Görünən) çayı hövzəsindəki aullarda yaşayır. Sayları isə 150 minə yaxındır. Öz dillərində məktəbləri, məscidləri, xeyli mədəni-məişət obyektləri var. Çin ərazisində yaşayan uyğur qardaşları ilə daim təmasdadırlar. Hər iki tərəf Ulan-Batordan Urumçiyə uzanan dəmir yolu ilə əlaqə saxlayır, ticarət işlərində müştərək fəaliyyət göstərirlər. Dağlıq Qarabağın "Arsaq" adlandırılması əslində pis deyil. Ancaq onu öz əraziləri kimi qələmə verməklə erməni separatçıları qabaqdangəlmişlik edir və tərtib etdikləri "xəritə" ilə dünyaya sübut etməyə çalışırlar ki, həqiqətən "Arsaq" erməni sözüdür və torpaq da onlara məxsus olub. Lakin nahaq yerə əl-qol atmaq gərək deyil. Çayda batan əlini kol-kosa atar...***

**(ardı var)**